**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№362/3** **28 dekabr 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramının qurulmasına və tətbiqinə dair Metodik Göstəriş” barədə**

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə” Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.3-cü bəndinin icrası ilə əlaqədar Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramının qurulmasına və tətbiqinə dair Metodik Göstəriş”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramının qurulmasına və tətbiqinə dair Metodik Göstəriş” bəyənilsin (əlavə olunur).
2. Auditin sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət proqramının qurulmasına və tətbiqinə dair Metodik Göstəriş”in auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, xidmət göstərərkən bu “Metodik Göstəriş”i rəhbər tutsunlar.
4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, 2024-cü ilin I rübündə bu “Metodik Göstəriş”ə dair seminarın keçirilməsi təmin edilsin.
5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Metodik Göstəriş”in yeni nəşr ediləcək “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na daxil edilməsini təmin etsin.
6. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/1 nömrəli qərarı ilə bəyənilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair Metodik Göstəriş” qüvvədən düşmüş hesab edilsin.
7. Bu qərarın və “Metodik Göstəriş”in mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**